1_Layout 1 30.07.2014 9:04 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 14 (432)

31 iyul 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# "ORDUMUZUN DÖYÜŞ QABİLİYYƏTİ YÜKSƏK SƏVİYYƏDƏDİR"

*İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti*

## Azərbaycan 2014-cü ili də böyük uğurlarla başa vuracaqdır

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çıxışlarından:**



- Ən sevindirici hal ondan ibarətdir ki, - mən bunu sevinc hissi ilə qeyd edirəm, - son illər ərzində qeyri-neft sektorumuz uğurla artır və qeyri-neft sektorumuzda inkişaf 7 faiz səviyyəsindədir.

**İnflyasiya Azərbaycanda nəinki birrəqəmlidir, hətta 1,6 faiz təşkil edir. Bu, çox gözəl göstəricidir. Xüsusilə nəzərə alsaq ki, ölkəmizə bu qədər həm daxili, həm xarici investisiyalar qoyulur, maaşlar, pensiyalar ildən-ilə qaldırılır, sovet vaxtından qalmış əmanətlər kompensasiya şəklində, MDB-də ən böyük əmsalla, ən qısa müddət ərzində insanlara qaytarılmışdır.**

**Əhalinin pul gəlirləri isə 4,7 faiz artıb, yəni, inflyasiyanı 3 dəfə üstələyir. İstənilən ölkə üçün bu, ən arzu olunan balansdır.**

Ölkəmizin maliyyə vəziyyəti çox sabitdir. Mən dəfələrlə demişəm, bizim iqtisadi və maliyyə vəziyyətimiz müstəqilliyimizi şərtləndirən əsas amillərdən biridir. Azərbaycan böyük maliyyə resurslarına malikdir. Bu resursları biz özümüz yaratmışıq, bizə heç kim kömək etməmişdir. Azərbaycan xalqının istedadı və düşünülmüş siyasət nəticəsində bunu əldə etmişik.

**Bu gün dünya miqyasında adambaşına düşən valyuta ehtiyatlarına görə, hesab edirəm ki, Azərbaycan aparıcı, yəni, ən qabaqcıl yerlərdədir. Bizim 54 milyarddan çox valyuta ehtiyatlarımız vardır. Bu da bizə inam, əminlik verir, imkan verir ki, bundan sonra da böyük infrastruktur və sosial layihələrimizi icra edək.**

Orta əməkhaqqı artıb, indi 440 manat və ya 560 dollar təşkil edir. Əminəm ki, daha da artacaqdır.

Sosial infrastruktur layihələri icra edilir. Səksəndən çox təhsil müəssisəsi, qırxdan çox səhiyyə ocağı təmir olunur, tikilir. Yəni, bu da sosial sahəyə ayrılan vəsaitin, diqqətin hesabına olan məsələlərdir.

**Ordu quruculuğu prosesi uğurla gedir, orduda islahatlar dərinləşir, nizam-intizam artır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, gündən-günə artır. Ordu günündə və bu yaxınlarda cəbhə bölgəsində keçirilmiş təlimlər həm praktik nöqteyi-nəzərdən, eyni zamanda, gücümüzü nümayiş etdirmək nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik məsələlərdir.**

Azərbaycan heç vaxt öz enerji resurslarından başqa məqsədlər üçün istifadə etməmişdir. Bizim bu sahədəki fəlsəfəmiz və yanaşmamız ondan ibarətdir ki, enerji resursları əməkdaşlığı dərinləşdirməlidir, birliyi möhkəmləndirməlidir və əlbəttə ki, biz bu siyasəti apararaq öz milli maraqlarımızı təmin edirik. Bu gün həm bölgədə, həm dünyada bizim maraqlarımız təmin edilir.

Növbəti illərdə TANAP layihəsinin icrası ilə bağlı Azərbaycanda on minlərlə yeni iş yeri açılacaqdır. Azərbaycan şirkətləri bu layihələrdə iştirak edəcəklər. Son vaxtlar imzalanan kontraktlar üzrə tenderlərdə Azərbaycan şirkətləri ya birbaşa, ya da xarici şirkətlərlə birlikdə qalib gəlmişlər və bir neçə milyard dollar həcmində kontraktların icrası da Azərbaycan şirkətlərinə həvalə edilmişdir. Bu da dövlətin özəl sektora göstərdiyi diqqət və qayğıdır.

**Ölkədə çox gözəl ab-hava vardır. Çox gözəl ictimai-siyasi vəziyyət müşahidə olunur. Sabitlik tam şəkildə təmin edilir. Sabitliyin qarantı Azərbaycan xalqıdır və gördüyümüz işlərdir. Azərbaycan xalqının rifahı, cəmiyyətdə bərqərar olan ədalət, o cümlədən sosial ədalət və xoşagəlməz hallarla mübarizə bu müsbət meylləri daha da gücləndirir.**

Əminəm ki, ilin sonuna qədər qarşımızda duran bütün məsələlər öz həllini tapacaqdır və Azərbaycan 2014-cü ili də böyük uğurlarla başa vuracaqdır.

**Xoşagəlməz hallara qarşı mübarizə davam edir. Bu, daim diqqət mərkəzində olan məsələdir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə gözəl nəticələr verir. Bunu əhali də görür, təqdirlə qarşılayır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Hesab edirəm ki, biz bu sahədə köklü dəyişikliklərə nail ola bilmişik.**

O ki qaldı "ASAN xidmət"in fəaliyyətinə, hesab edirəm ki, biz avtobusların sayını artırmalıyıq. İndi cəmi iki avtobus vardır. Biz onların sayını 10-a çatdırmalıyıq. Ona görə, Maliyyə Nazirliyi məsələyə baxsın və təklif versin. Qısa müddət ərzində 10 avtobus daim hərəkətdə olmalıdır ki, insanlar razı qalsınlar.

**Biz "Avro" standartına keçmişik. "Avro" standartından aşağı səviyyədə olan avtomobillər artıq Azərbaycana idxal edilmir. Bu da böyük dərəcədə müsbət təsir göstərəcəkdir. Çünki havanı çirkləndirən əsas amil avtomobillərdir. Həmçinin neftayırma zavodumuzda yenidənqurma işləri nəzərdə tutulur. Artıq layihə təqdim edilibdir. Mən hələ ki, bu barədə geniş danışmaq istəmirəm. Bəlkə də, biz bunu ayrıca müzakirə edəcəyik. Ancaq bizim zavodumuzda ən azı "Avro-5" benzinin istehsalı nəzərdə tutulur və vaxt qoymuşam ki, biz bu məsələni üç il ərzində həll etməliyik.**

Bibiheybət buxtasının əvvəlki görüntülərinə nəzər salsaq görərik ki, biz nə dərəcədə böyük işlər görmüşük. İndi orada ağaclar əkilib, park salınıb. O, böyük bir fəlakət zonası idi. Ceyms Bond haqqında filmi orada çəkmişdilər. Təqribən on il bundan əvvəl böyük bir fəlakət zonası kimi çəkmişdilər. Bibiheybətin o filmdəki və indiki vəziyyətinə baxmaq olar. İndi biz orada incəsənət, idman şəhərcikləri salırıq. Avropa Oyunlarına hazırlıq məqsədi ilə orada böyük Su İdmanı Sarayı və açıq meydançalar tikilir. Böyük hovuzlar, istirahət zonaları, idman meydançaları olacaqdır. Oyunlardan sonra isə onlardan vətəndaşlar da istifadə edəcəklər.

**Ölkəmiz inamla, dinamik şəkildə inkişaf edir. Ölkə iqtisadiyyatı dayanıqlıdır.**

# JANDARM QÜVVƏLƏRİNİN ZABİTLƏRİ "FƏXRİ FƏRMAN"LA TƏLTİF OLUNMUŞDUR

*Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan daha bir müəllim heyətinin fəaliyyət müddəti başa çatmışdır*

**İyul ayının 18-də Türkiyə Respublikasının Jandarm Qüvvələrinin Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan daha bir heyətinin fəaliyyət müddəti başa çatmışdır. Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov heyətlə görüşmüşdür.**



Türkiyəli zabitləri səmimi salamlayan general-mayor Ş.Məmmədov xidməti ezamiyyətini başa vurmuş, qoşunların hərbi hissələrində çalışmış 9 nəfərdən ibarət müəllim heyətinə göstərdikləri köməkliyə görə minnətdarlığını bildirmişdir.

Cənab Komandan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci il oktyabrın 31-də Türkiyə Respublikası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında imzalanmış protokoldan danışaraq, iki qurum arasındakı sıx əsgəri qardaşlıq münasibətlərinin günü-gündən dərinləşdiyini vurğulamışdır. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamını xatırladan Daxili Qoşunların Komandanı qardaş Türkiyə Respublikasının Jandarm təşkilatının Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarına təlim-tədris sahəsində göstərdiyi köməkliyin bunun bariz nümunəsi olduğunu nəzərə çatdırmışdır.

Türkiyəli müəllim heyəti onlara göstərilən diqqətə görə Daxili Qoşunların Komandanına öz dərin minnətdarlığını ifadə etmişdir. Xidməti fəaliyyət müddətində qardaş münasibətini hiss etdiklərini deyən heyət üzvləri Daxili Qoşunlara daima köməklik göstərməyə hazır olduqlarını bildirmişlər. Görüşün sonunda general-mayor Ş.Məmmədov Jandarm Qüvvələrinin zabitlərini "Fərman"la mükafatlandırmış və xatirə şəkli çəkdirmişdir.

**baş leytenant T.Əlizadə**

# DAXİLİ QOŞUNLARDA GƏNC ƏSGƏRLƏR ÜÇÜN HƏRTƏRƏFLİ ŞƏRAİT YARADILMIŞDIR

***İyulun 20-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov "N" saylı hərbi hissədə gənc əsgərlərin valideynləri ilə görüşmüşdür.***



Daxili Qoşunlarda hərbi xidmət, şəxsi heyət üçün yaradılmış şərait haqqında ümumi məlumatın verilməsi və valideynləri maraqlandıran sualların cavablandırılması məqsədilə keçirilən görüşdə general-mayor Ş.Məmmədov əvvəlcə ordu quruculuğundakı inkişafdan bəhs etmiş, dövlət tərəfindən hərbi qulluqçulara göstərilən diqqət və qayğıdan danışmışdır: "Bu gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının maddi-texniki, sosial təminatı üzrə mühüm işlər görülmüşdür. Şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə müasir standartlara cavab verən yaşayış komplekslərinin, yeni hərbi şəhərciklərin, əsgər kazarmalarının tikilib istifadəyə verilməsi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi qulluqçulara göstərdiyi diqqət və qayğısının nəticəsidir".

Sonra gənc əsgərlərin valideynlərinə Daxili Qoşunların qarşısında duran vəzifələr barədə məlumat verilmiş, valideynlərin xidmətlə bağlı verdikləri suallar cavablandırılmış, onların arzu və istəklərinin yerinə yetirilməsi istiqamətində konkret göstərişlər verilmiş, icrası mümkün olan məsələlər isə yerindəcə həllini tapmışdır.

**mayor R.Sarıyev**

2_Layout 1 30.07.2014 9:05 Page 1



# "VƏTƏNİ QORUMAQDAN ŞƏRƏFLİ HEÇ NƏ OLA BİLMƏZ!"

*Bu fikri Daxili Qoşunların Komandanı gənc əsgərlərlə görüşü zamanı səsləndirmişdir*

**İyul ayının 19-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov "N" saylı hərbi hissədə xidmətə yeni qəbul olunan gənc əsgərlərlə görüşmüşdür. Cənab Komandan Daxili Qoşunların qarşısında duran vəzifələr haqda geniş məlumat vermiş, xidmətə məsuliyyətlə yanaşmağı tövsiyə etmiş, onların məişət şəraiti, sağlamlığı, qidalanmanın keyfiyyəti ilə maraqlanmışdır.**

Respublikamızda həyata keçirilən sosial-iqtisadi inkişafdan danışan general-mayor Ş.Məmmədov DİN-in Daxili Qoşunlarının formalaşmasında, yüksək döyüş hazırlığına gətirilməsində Ümummilli Lider Heydər Əliyevin çox böyük əməyinin olduğunu vurğulamışdır. Qeyd etmişdir ki, qarşıya çıxan qəfləti tapşırıqları böyük peşəkarlıqla yerinə yetirən Daxili Qoşunlar hər zaman Ulu Öndərin xüsusi diqqət və qayğısını hiss etmişdir: *"Ümummilli Liderimiz Heydər Əliyev çıxışlarında Daxili Qoşunlar haqqında müsbət fikirlər söyləmişdir. Qoşunlara göstərilən ali diqqət və qayğı bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən davam etdirilməkdədir. Ölkə Prezidenti hər dəfə Daxili Qoşunların hərbi hissələrində olarkən əsgərlər üçün yaradılmış hərtərəfli şəraitdən məmnun olduğunu bildirmiş və hərbi qulluqçularımızın döyüş hazırlığını, xidməti-döyüş fəaliyyətini yüksək qiymətləndirmişdir".*

**Qoşunların qarşısında duran vəzifələr barədə əsgərləri məlumatlandıran general-mayor Ş.Məmmədov bildirmişdir ki, Daxili Qoşunların vəzifələri 8 fevral 1994-cü il tarixli "Daxili Qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir:** *"Bu qanuna uyğun olaraq, Daxili Qoşunlar ona həvalə olunmuş vəzifələri yerinə yetirməklə şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar və digər hüquqazidd qəsdlərdən qoruyur.*

Cənab Komandan Daxili Qoşunlarda xidmətin yüksək səviyyədə qurulmasından, ölkədə bərqərar olan əmin-amanlıqdan və sabitlikdən də danışmışdır: *"Ölkəmizdə insanların normal yaşaması üçün hər cür şərait yaradılıb. Sabitlik hökm sürür. Azərbaycan iqtisadi inkişaf tempinə görə qabaqcıl ölkələrin sırasında dayanır. Ona görə də ölkəmizin hər qarış torpağının qədrini bilməli, onun müdafiəsi naminə canımızdan belə keçməyə hazır olmalıyıq".*

Sonra general-mayor Ş.Məmmədov qoşunlarda xidmət edən hərbi qulluqçuların yüksək peşə hazırlığına malik olmasının vacibliyini gənc əsgərlərin diqqətinə çatdırmışdır: *"Daxili Qoşunlarda xidmət edən hər bir əsgər yüksək peşə hazırlığına malik olmalı, Vətənə, dövlətə sadiqlik nümayiş etdirməlidir. Bunun üçün nə lazımdır? Hərb sənətinin incəliklərini öyrənməli, təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilməli, ondan istifadə qaydalarını bacarmaq lazımdır. Bununla yanaşı, əsgər birinci növbədə özünə qəti şəkildə inanmalı, yüksək intizama və döyüş ruhuna malik olmalıdır".*

Xidmətin ilk günlərindən hərbi nizamnamələrdə əks olunan qaydalara ciddi riayət etməyin vacibliyini vurğulayan Daxili Qoşunların Komandanı nəzərə çatdırdı: *"Bizim əsgərlər ən intizamlı, nümunəvi əsgərlərdir. Çalışın sizlər də bu nizam-intizamı qoruyub saxlayasınız. Komandirlərin bütün əmr və göstərişlərinə əməl edin. Unutmayın ki, xidmətdə hər şey nizamnamələrin tələbləri səviyyəsində icra olunur. Nizamnamədən kənar hərəkətlər yolverilməzdir".*

Daxili Qoşunların Komandanı silah-sursatlarla son dərəcə ehtiyatla davranmağı əsgərlər qarşısında tələb kimi qoyaraq təhlükəsizlik qaydalarına ciddi əməl etməyi tapşırmışdır: *"Bir qayda olaraq, təhlükəsizlik qaydalarına ciddi əməl etməlisiniz. Təlimlərdə, məşğələlərdə fəal olmağa çalışın. Fiziki hazırlığınıza xüsusilə fikir verin".*

O, hərbi qulluqçular arasındakı qarşılıqlı münasibətlərə də toxunaraq əsl dostluğun məhz xidmət dövründə yarandığını bildirmişdir: *"Daxili Qoşunlarda xidmət eyni zamanda möhkəm kollektivçilik, mehribançılıq əsasında təşkil olunub. Daxili Qoşunlar bir ailədir, hər bir əsgər bu ailənin üzvüdür. Əsgər yoldaşlarınızı ziyanlı vərdişlərdən çəkindirməyə çalışın. Yoldaşınızın səhvini dostcasına düzəltmək lazımdır. Hər hansı probleminiz olarsa, manqa komandirlərinə dərhal məlumat verin. Bir-birinizi başa düşməyə çalışın, yaddan çıxarmayın ki, bir Vətənin övladlarısınız. Biz bu gün öz doğma Vətənimizi qoruyuruq. Vətəni qorumaqdan şərəfli heç nə ola bilməz!".*

**mayor R.Sarıyev**

***Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu prosesini ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirir. Həyata keçirilən islahatlar çərçivəsində şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, ordumuz ən müasir texnika, silah-sursatlarla gücləndirilməkdədir. Elə bunun nəticəsidir ki, Cənubi Qafqazda liderliyi əlində saxlayan Azərbaycan Silahlı Qüvvələri döyüş qabiliyyəti və təchizat göstəricilərinə görə dünyanın ən güclü orduları ilə müqayisə olunacaq səviyyədədir.***

***Bu, bir daha iyunun 26-da keçirilmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi Daxili Qoşunları və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri zamanı öz təsdiqini tapmışdır.***

***Qarşıya qoyulmuş tapşırıqların tam və dəqiqliklə yerinə yetirildiyi təlimdə fərqlənən hərbi qulluqçular Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən mükafatlandırılmışlar.***

***Daxili Qoşunların iki hərbi qulluqçusu - çavuş Elşən Əliməmmədov (99713 saylı hərbi hissə) və çavuş Elnur Zuliyev (67987 saylı hərbi hissə) də Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən "Qiymətli hədiyyə" ilə mükafatlandırılmışlar.***

***Xidmət dövründə üzərilərinə düşən tapşırıqların öhdəsindən layiqincə gəlmiş hər iki hərbi qulluqçumuz barədə bir qədər ətraflı məlumat vermək istərdik.***

# HƏRBİ QULLUQÇULARIMIZ BUNDAN SONRA DA ALİ BAŞ KOMANDANIN ETİMADINI DOĞRULDACAQLARINA SÖZ VERDİLƏR



**Çavuş Elşən Əliməmmədov** 1988-ci il sentyabrın 9-da Saatlı rayonunun Sarıcalar kəndində dünyaya göz açıb. 2006-2008-ci illərdə Daxili Qoşunların 12565 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2011-ci ilin avqust ayından 99713 saylı hərbi hissədə müddətdən artıq qulluq edən həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. Döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan Elşən hərbi biliklərini artırmaq məqsədilə daima öz üzərində çalışır. Hissə komandanlığı onun bu keyfiyyətlərini nəzərə alaraq, müxtəlif mükafatlara layiq görüb. Onun sözlərinə görə, xidmət dövründə ən yüksək mükafat cənab Ali Baş Komandanın ona təqdim etdiyi "Qiymətli hədiyyə" oldu. Böyük qürur və iftixar hissi keçirdiyini deyən Elşən bu şərəfli anı heç vaxt unutmayacağını və ona göstərilən etimadı daim qoruyub saxlayacağını bildirdi.



**Çavuş Elnur Zuliyev** isə 1992-ci il dekabrın 26-da Qax rayonunda anadan olub. Orta təhsilini başa vurduqdan sonra 2011-ci ilin yanvar ayından 2012-ci ilin iyul ayınadək Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Elə həmin ildən müddətdən artıq qulluq edən həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. Yarımqrup komandiri olan çavuş E.Zuliyev xidmət etdiyi dövrdə bilik və bacarığına, nümunəvi xidmətinə, həmçinin yüksək nizam-intizamına görə dəfələrlə hissə komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Hələ kiçik yaşlarından idmana maraq göstərən Elnur güləşin sərbəst növü ilə məşğul olub. 2007-2009-cu illərdə qaydasız döyüş üzrə keçirilən Respublika birinciliyində üç dəfə "Azərbaycan çempionu" adını qazanıb.

Çavuş E.Zuliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən layiq görüldüyü ali mükafat barədə fikrini bölüşərkən qeyd etdi ki, bu mükafat indiyə qədər aldığı ən qiymətli hədiyyə olaraq qalacaq: "Bundan sonra daha da əzmlə çalışacaq, göstərilən bu etimadı doğruldacağam".

Hərbi qulluqçularımıza xidməti fəalyyətlərində uğurlar arzulayırıq.

**Dövlət və dövlətçiliyimiz naminə fədakar xidmətilə fəxr edən Daxili Qoşunların şəxsi heyəti bundan sonra da Vətənə, xalqa, Silahlı Qüvvələrin Ali Baş Komandanına sadiq olacaqdır!**

**baş leytenant T.Əlizadə**

***Gənc əsgər Şahmar Rəfili 2014-cü ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini fərqlənmə diplomu ilə bitirib. Hazırda qoşunların 67987 saylı hərbi hissəsində gənc əsgərlər üçün təşkil olunmuş tədris bölüyündə xidmət edir. Daxili Qoşunlarda xidmət etdiyi üçün qürur duyduğunu deyən Şahmarın qoşunlarımız barədə fikirlərini sizə təqdim edirik:***

## Gənc əsgər:

# "DAXİLİ QOŞUNLARDA XİDMƏT ETDİYİMƏ GÖRƏ QÜRUR DUYURAM"



"Daxili Qoşunlarda xidmətə başladığım ilk günlərdən məndə ordumuz barədə xoş təəssürat yarandı. Hərbi hissəmizdə gənc əsgərlər üçün sağlam mühit yaradılıb. Komandirlərimiz tək sıra təlimini deyil, vətənpərvərlik hisslərini də bizlərə aşılayır. Vaxtaşırı bizimlə Daxili Qoşunların keçdiyi şərəfli yollardan söhbət açılır, vətənpərvərlik mövzusunda söhbətlər edilir. Ümummilli Liderimiz Heydər Əliyevin vətənpərvərlik haqqında dediyi fikirlər hər birimiz üçün örnəkdir. Ulu Öndər deyirdi:"Hər bir insan vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik!".

Daxili Qoşunlarda xidmət etməkdən qürur hissi keçirdiklərini söyləyən gənc əsgər Ş.Rəfili bu günlər ərzində qoşunlar barədə kifayət qədər məlumatlı olduqlarını bildirdi: "Daxili Qoşunlar düşmən qarşısından bir addım belə geri çəkilməyən Şahin Abbasov, Fərhad Yusifov, Yalçın Qəhrəmanov, Siyavuş Rüstəmov, Maqsud Daşdıyev, Elpərəst Hüseynov, Mahir Hümbətov kimi Azərbaycanın azadlığı uğrunda canından keçmiş, şəhidlik zirvəsinə yüksəlmiş igidlər yetişdirib. Eyni zamanda Daxili Qoşunlar hər zaman respublikamızın daxilində ictimai asayişin və əmin-amanlığın keşiyində dayanıb. Biz əsgərlər də vəzifə borcumuzu yerinə yetirməyə, o cümlədən Vətənimizin azadlığı uğrunda canımızdan keçməyə hazırıq!"

**Gənc əsgər Ş.Rəfilinin timsalında bütün gənc əsgərlərimizə xidməti fəaliyyətlərində uğurlar diləyirik. İnanırıq ki, gənclərimiz "Azərbaycan əsgəri" adını daim yüksək zirvələrə qaldıraraq, Vətənimizə ləyaqətlə xidmət edəcəklər.**

**baş leytenant Anar Əhmədov,**
**67987 saylı hərbi hissənin zabiti**

# 16077 SAYLI HƏRBİ HİSSƏ YARIŞIN QALİBİ OLDU

*Şəxsi birinciliyi isə çavuş Elzamin Cəfərli qazandı*





Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə və Daxili Qoşunlarda əsas tədbirlər planına əsasən, iyunun 23-dən 28-dək qoşunların Xızı rayonu ərazisində yerləşən Təlim Mərkəzində hərbi hissələrin xüsusi təyinatlı dəstələrinin snayperləri arasında birincilik yarışı keçirilmişdir. Yarışda hərbi hissələrin xüsusi təyinatlı dəstələrindən 16 nəfər snayper və 8 nəfər nümayəndə iştirak etmişdir. Yarışlar zamanı gecə və gündüz vaxtı snayper tüfənglərindən atış tapşırıqları yerinə yetirilmişdir.

Qeyd edim ki, yarışa cəlb olunan snayperlər Daxili Qoşunların hərbi qulluqçularına xas olan keyfiyyətlər - yüksək mənəvi-psixoloji dayanıqlıq, fiziki dözümlülük və hərbi intizam nümayiş etdirmişlər.

Bundan əlavə, şəxsi heyətlə atışların keçirilməsi, maddi-texniki tədris bazasının hazırlanması zamanı 99713 saylı hərbi hissənin komandanlığı və Təlim Mərkəzinin şəxsi heyəti nəzərdə tutulmuş tədbirlərin tam və keyfiyyətlə icrasının təmin olunmasında üzərlərinə düşmüş vəzifə borclarını layiqincə yerinə yetirmişlər.

**Şəxsi birincilik üzrə yarışın nəticələri (ilk üçlük) aşağıdakı kimi olmuşdur:**

***I yer*** *- çavuş Cəfərli Elzamin Əvəz oğlu (16077 saylı hərbi hissə);*

***II yer*** *- kiçik çavuş Əliyev Kamil Asif oğlu (99713 saylı hərbi hissə);*

***III yer*** *- çavuş Məhərov Rizvan Şiraz oğlu (16077 saylı hərbi hissə).*

Yarışların ümumi nəticələrinə gəldikdə 16077, 16075 və 99713 saylı hərbi hissələrin komandaları ilk üçlüyü bölüşmüşlər. 16073, 17072 və 25033 saylı hərbi hissələrin komandaları isə turnir cədvəlinin son 3 pilləsində qərarlaşmışlar.

Yarışın nəticələrinə görə 1-ci yeri tutmuş hərbi hissə kubokla, şəxsi birincilikdə isə 1-ci, 2-ci və 3-cü yeri qazanmış hərbi qulluqçular medal və fərmanlarla mükafatlandırılmışlar.

**gizir X.Tağıyeva**

3_Layout 1 30.07.2014 12:20 Page 1



# ŞƏHİD QANI AXAN TORPAQ...

**Vətən əcdadlarımızın əmanətidir. Tarix boyu fədai oğullar onun uğrunda can verib, qan töküb, hər bir məşəqqətə dözüb. Bu müqəddəs torpağı bugünkü nəsillər üçün qoruyub saxlaya bilmiş mərd babalarımızın hansı sınaqlardan keçdiyini təsəvvür etmək çətin deyil. Əsrlərlə yurdumuza göz dikən yağıların, yadellilərin sayı-hesabı bilinməyib. Məmləkətimiz müxtəlif tarixi dövrlərdə qanlı savaş meydanına çevrilib. Bəli, olmazın iztirablar, sengiməyən sarsıntılar, qurbanlar tələb edən mübarizələr xalqımızın taleyinə yazılıb. Bütün bunlar Vətənimizin keşməkeşli və şərəfli tarixə malik olduğunu göstərir. Bu yerdə dahi Səməd Vurğunun unudulmaz misraları yada düşür:**

***Bilinməyir yaşın sənin,***
***Nələr çəkmiş başın sənin...***

Xalqımız fədakarlıq göstərərək bugünkü müstəqil dövlətimizin qurulmasınadək çox çətin bir yolu qət edə bilib. Müstəqillik dövründə də təlatümlərdən keçmişik. Əlbəttə, müstəqilliyimiz iftixarımızdır. Onun qədrini bilməliyik. Bu gün qarşımızda iki mühüm vəzifə dayanır: ***milli müstəqilliyimizi qoruyub saxlamaq və respublikamızın ərazi bütövlüyünü bərpa etmək.***

Torpaqlarımızın bir qisminin düşmən tapdağında olması qürurumuza toxunur. Mənliyimiz, təfəkkürümüz bu reallığa üsyan edir. Dərk edirik ki, o torpaqları geri almasaq, heç vaxt özümüzü bağışlamarıq, gələcək nəsillərin tənəsindən də bizi heç nə qurtara bilməz.

Sinəsi yaralı Vətən torpağı...Neçə-neçə şəhidin qanı axmış yurdlarımız, obalarımız düşmənlə təmas xəttinin o tayında qalıb. 20 il bundan öncə döyüş səngərləri olmuş indiki təmas xəttində o odlu-alovlu günlərin izləri, nişanələri var. Əslində, təmas xətti ifadəsi diplomatiya üçündür. Bu gün atəşkəs şəraitində düşmənlə üzbəüz dayanmış hərbçilərimizin nəzərində döyüş səngərləri öz mahiyyətini dəyişməyib və dəyişməyəcək də...

**Bu gün də, 20 il bundan qabaq döyüşlərin getdiyi günlərdəki kimi, mərd oğullarımız səngərlərdə şəhid olur və yaralanır. Uca şəhidlik zirvəsinə gedən yolun başlanğıcı Vətən səngərləridir. Təəssüf ki, bu gün bəzi həmvətənlərimiz bu səngərlərdən uzaqlarda, yad ölkələrdə, başqa amallar naminə "şəhid olmağa" gedirlər. Onlar özlərini cihad döyüşçüləri adlandırırlar. Halbuki, bizim üçün cihad ünvanı işğal olunmuş Qarabağımızdır. Cihad döyüşü işğalçılara qarşı aparılmalıdır. Cihad anlayışını təhrif etmək böyük günahdır. Qarabağda və ətraf ərazilərimizdə ölüm-dirim savaşının getdiyi günlərdə adları məlum o müsəlman ölkələrindən bizimlə çiyin-çiyinə vuruşmağa kim gəlmişdi? Harada idi onda o cihad carçıları?! Əgər müəyyən istisnalar var idisə də, bunun maddi qarşılığı olub. Döyüşçü kimi Vətəninə gərək olmasına baxmayaraq, ayrı-ayrı gənclərimizin din pərdəsi altında qürbət ellərdə güdaza getməsi ilə barışa bilmərik. Dövlətimiz bu məsələdə öz prinsipial mövqeyini ortaya qoyur və lazımi tədbirlər görür. Ancaq ictimaiyyət də öz qəti sözünü deməlidir. Ailələrimizdə oğulları Vətən üçün əsgər kimi yetişdirmək lazımdır. Necə ki, Qarabağda döyüşmüş və şəhid olmuş oğullarımız belə yetişdirilmişdi.**

Xalqımız şəhidləri həmişə ehtiramla xatırlayır. Şəhidlər xalqın yaddaşında heç zaman unudulmur. Bir xalqın mərdliyini, döyüşkənliyini, azadlıq əzmini, torpağına bağlılığını və düşmənə müqavimət potensialını qiymətləndirərkən onun şəhidlik salnaməsi tədqiq olunur. Şəhidlik hər bir xalqın yenilməzlik simvoludur, onun mənəviyyatının bünövrəsində dayanan faktorlardan biridir. Tarix boyu şəhidlik və vətənpərvərlik bir-birinə qırılmaz tellərlə bağlı olub.

Şəhid sözü tariximizin sovet dövründə müəyyən qədər kölgədə qalmışdı. Bu sözə ancaq ədəbiyyatımızda, tarixi mənbələrdə rast gəlirdik. 1990-cı ilin 20 Yanvar faciəsi zamanı azadlığımız uğrunda əliyalın ölümə atılan cəsur oğul və qızlarımıza haqlı olaraq "şəhid" adını verdik. Həmin vaxtdan bu söz ümumxalq dilində layiq olduğu yerini yenidən tutdu. Sonra ərazi bütövlüyümüz uğrunda erməni işğalçılarına qarşı döyüşlər başladı və ölkəmizin hər bir bölgəsində Şəhidlər Xiyabanı yarandı...

Şəhidlər bu həyatda şərəfli yaşamaq örnəyi, düşməndən qisas almaq vəsiyyəti, ailələrini bizə əmanət qoyub getdilər. Döyüş xatirələrimdə neçə-neçə şəhidin gözlərim önündə həyata vida anları, ölümə sinə gərdiyi məqamlar yaşayacaq və ömrümün sonunadək yaşayacaqdır. Onların sifət cizgiləri, bəzilərinin son anda deyə bildiyi sözlər, cansız bədənləri üzərində döyüşçü yoldaşlarının göz yaşları, sinəsi mərmi və güllələrdən dəlik-dəlik olmuş torpaqdan havaya qarışan barıt qoxusu, şəhidlərin və yaralıların daşındığı xərəklərdə qan ləkəsi hafizəmdə dərin iz buraxıb. Biz bu müharibədə yurd yerlərimizlə yanaşı, say-seçmə, el-oba dayağı olan oğullarımızı da itirdik. Məhz bu oğullar düşməni geri oturtmaq, dinc əhalinin düşmənin əlinə keçməməsi üçün son nəfəsə, son damla qanadək vuruşmuşlar. Onlar olmasa idi, bu gün müharibə haqqında danışmağa bəlkə də sözümüz olmazdı...

Mən ümid edirəm ki, narahat şəhid ruhları rahatlıq tapacaq. Biz şəhidlərin əbədiyyətə qovuşduğu yurdlarımızı işğaldan azad edəcəyik. Buna inam yaradan çox ciddi əsaslar var. İldən-ilə daha da güclənən dövlətimiz və ordumuz tarixi ədaləti bərpa etmək missiyasını uğurla yerinə yetirəcək. Bu məqsədə çatmaqda şəhid qanı axan torpağımızdan güc alacağıq.

Yazımı döyüşçü-şair Elxan Xəzərin "Ölməzlik" şeirindən bir bəndlə bitirirəm:

***O, qola güc verdi, başqası dilə,***
***Odlu silahını götürdü ələ.***
***Düşmənin izini öz qanı ilə***
***Torpağın üstündən sildi şəhidlər.***

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov,**
**Daxili Qoşunların Veteranlar Şurasının katibi**

# XİDMƏTƏ MƏSULİYYƏTLƏ YANAŞILARSA...

***Baş gizir Müşfiq Məhərrəmov artıq 20 ilə yaxındır ki, Daxili Qoşunların sıralarındadır. Hər zaman öz işini sevərək icra edən avtomobil yarımqrupunun komandiri döyüş hazırlığının qorunub saxlanılmasında əlindən gələni əsirgəmir. Onun xidməti hər zaman yüksək qiymətləndirilmiş və ötən illər ərzində dəfələrlə mükafatlara layiq görülmüşdür.***



Baş gizir M.Məhərrəmov qarşıya qoyulmuş tapşırıqların vaxtında yerinə yetirilməsində avtomobillərin daima saz vəziyyətdə saxlanılmasının vacib amil olduğunu bildirdi: "Avtomobillərin hissə və mexanizmlərinin yoxlanılması, onlara texniki qulluğun göstərilməsi daima diqqətdə saxlanılır. Eyni zamanda taktiki-texniki xüsusiyyətləri şəxsi heyət tərəfindən diqqətlə öyrənilir və sürücülərlə müvafiq mövzular üzrə praktik məşğələlər keçirilir".

O əlavə etdi ki, avtomobillərə müəyyən olunmuş vaxtlarda texniki xidmət göstərilməlidir. Belə ki, nəqliyyat vasitələrinin istifadəyə daim hazırlığını, hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə vaxtından əvvəl sıradan çıxmış, köhnəlmiş, dağılmış hissə və mexanizmlər dəyişdirilməli, nasazlıq və sınmalar aradan qaldırılmalıdır.

Hərbi hissədə sürücü heyətinin peşə vərdişlərinin təkmilləşdirilməsi üçün nəzəri və praktiki məşğələlərin təşkil olunduğunu nəzərə çatdıran baş gizir M.Məhərrəmov bildirdi ki, kimi tədbirlər əvvəlcədən planlaşdırılır və onların icrasına ciddi nəzarət edilir: "Xidmətə məsuliyyətlə yanaşılarsa, nailiyyət əldə etmiş olarsan. Bu ifadə bütün xidmət sahələrində öz təsdiqini tapmışdır".

**gizir X.Tağıyeva**

# TAPŞIRIQLAR KEYFİYYƏTLƏ YERİNƏ YETİRİLİR



Baş leytenant Sahib İbrahimov 1987-ci il mart ayının 13-də Tərtər rayonunun Səhləbad kəndində anadan olub. Doğulub boya-başa çatdığı kənddə təhsil alan Sahib orta məktəbi bitirdikdən sonra, 2005-ci ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Daxili Qoşunların 99713 saylı hərbi hissəsində keçib. 2006-cı ilin oktyabr ayından isə elə həmin hərbi hissənin xüsusi təyinatlı dəstəsində müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçu kimi xidmətini davam etdirib. 2008-2010-cu illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb və "leytenant" hərbi rütbəsinə yiyələnib. O, əvvəlcə taqım komandiri, daha sonra isə 16077 saylı hərbi hissənin dəstəsində qrup komandiri vəzifələrində çalışıb. 2013-cü ildə isə 16075 saylı hərbi hissədə dəstə komandirinin müavini-Qərargah rəisi vəzifəsinə təyin olunub.

Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasının daim diqqət mərkəzində olduğunu bildirən baş leytenant S.İbrahimov bunun üçün praktiki atışların, fiziki hazırlıq təlimlərinin, döyüş və xüsusi hazırlıq məşğələlərinin keyfiyyətlə keçirilməsinə çox böyük önəm verdiklərini qeyd etdi. O, həmin təlimlərin həftəlik məşğələ cədvəllərinə uyğun olaraq təşkil olunduğunu söylədi: "Şəxsi heyət keçirilən təlimlərdə yüksək peşəkarlıq nümayiş etdirir, hər zaman fərqlənməyə çalışır. Bir sözlə, yüksək mənəvi-psixoloji və döyüş hazırlığına malik olan dəstə qarşısına qoyulmuş bütün tapşırıqları tam dəqiqliklə yerinə yetirməyə hazırdır".

**gizir X.Tağıyeva**

# MİNA ZƏRƏRSİZLƏŞDİRİLMİŞDİR



İyul ayının 17-də Cəlilabad RPŞ-dən Daxili Qoşunların Baş İdarəsinə Cəlilabad şəhərinin M.Hüseynzadə küçəsində 1 (bir) ədəd "TM-62 M" markalı tank əleyhinə minanın tapılması barədə məlumat daxil olmuşdur.

Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisinin müvafiq göstərişi ilə Mühəndis və Kimya xidmətinin rəisi VİE baş leytenant İlkin Yoldaşovun rəhbərliyi altında mühəndis-istehkam manqasının şəxsi heyəti "Həyəcan" siqnalı ilə təyin olunmuş yerə göndərilmişdir.

Hadisə yerinə baxış zamanı 1 (bir) ədəd "TM-62 M" markalı tank əleyhinə mina döyüşə yararsız vəziyyətdə aşkar olunmuşdur. Partlama təhlükəsi olduğundan mina təhlükəsiz əraziyə aparılaraq partlatma üsulu ilə məhv edilmişdir.

**Mətbuat xidməti**

*Vətənpərvər şeirlər...*

# QARABAĞIM-AZƏRBAYCANIM!



**Mayisə Əsədullaqızı**

**"Qızıl qələm" mükafatçısı, Ağa Musa Nağıyev adına Milli Dəyərlərin Qorunması təşkilatının Fəxri jurnalisti, "Əsrin ziyalısı-ilin şairəsi" fəxri diplom təltifçisi, İctimaiyyət və təhsil" ictimai-siyasi hüquq qəzetinin təsisçi və baş redaktoru şairə-publisist Mayisə Əsədullaqızının Vətənə, xalqa, dövlətə, torpağa bağlılığı tərənnüm edən şeirləri əsgərlərin də ürəyinə yol tapıb. Müəllif redaksiyamıza göndərdiyi şeirində vətənpərvərlik hissi aşılayan fikirləri qələmə alaraq, şəxsi heyəti Ana Vətənimiz Azərbaycanı sevməyə, onu qorumağa səsləyir. Xanım şairənin şeirlərindən bir neçəsini təqdim edirik:**

### YURDUMUN

*Cavanşirlər yetiribdi, bu torpaq,*
*Mübarizdi hər döyüşdə, üzü ağ,*
*Öndərlərin yolu bizə bir çıraq,*
*Gəlin, bu yollarda, birlikdə olaq.*
*Yüksəlir sədası hər gün ordumun,*
*Həzisi var, Mehdisi var yurdumun!*
*Dərəsinə, dağına qəlb açıqdı,*
*Cizgiləri zəngindi, qarışıqdı,*
*Əcəmisi, Səttarı yaraşıqdı,*
*Könlüm bu gözəlliyə sarmaşıqdı,*
*Məhsətidi pak amalı arzumun,*
*Natavanı, Nigarı var yurdumun!*
*Düşmənlərin ağlın lərzəyə salan,*
*Xalqın yaddaşında şərəflə qalan,*
*Sinəsində Vətənə sevgi yanan,*
*Ölümdən qorxmayıb, torpağın anan,*
*Ürəyimdə ən imanlı andımın,*
*Mübarizi, Ramili var, yurdumun!*
*İrəvan, Göyçədi, ümid yerimdi,*
*Dəmirqapı Dərbənd öz Vətənimdi,*
*Təbriz, Borçalıdı, doğma elimdi,*
*Bakı, Naxçıvandı, qaşı yurdumun,*
*Ucalıb göylərə başı yurdumun,*
*Qızıldı, yaqutdu daşı yurdumun!*

### QARABAĞIM-AZƏRBAYCANIM!

*Qarabağ kədərim, Qarabağ şanım,*
*Həm dərdim, sevincim, toyum -*
*nişanım,*
*O gözəl gülüstan, cahi-cəlalım,*
*Tanrının verdiyi dövlətim, canım,*
*Bütöv bir adın var-Azərbaycanım!*
*Şıltaq gözəl təki, xəfif ayazım,*
*Kəlməm də bəs etmir,*
*bilməm nə yazım?!*
*Tarixləri görmüş kamanım- sazım,*
*Şəhid qanı hopmuş qara torpağım,*
*Gözü intizarda can, Qarabağım!*
*Torpağımdan gəlir zərif sorağım,*
*Sən mənim həm şeirim,*
*həm də ki, ağım,*
*Bir səhər gələcək şad-xürrəm çağım,*
*İnan qurulacaq xoşbəxt növrağım,*
*Gözəllik Kəbəsi ay Qarabağım!*

### ŞƏHİD ÖLÜMSÜZLÜYÜ

*Şəhid verdi torpağımız, alışdı yandı*
*bağrımız,*
*Od tutdu Qarabağımız, yazıldı qara*
*baxtımız...*
*Qara gəldi baharımız, Xəzan oldu*
*gülüstan-laləzarımız!*
*İlahi, bu nə zülümdü?*
*Torpağ üstə gülü üçün fəda gedən*
*bülbülümdü!*
*Ədalətə doğru gedən haqq yolumdu,*
*Qopub sinəmdən ayrılan sağ qolumdu!*
*Ətimdən, qanımdan olan öz canımdı,*
*varlığımdı!*
*Bu itkini, bu əzabı lap dərindən*
*duymaq üçün, gərək mütləq,*
*Mənim kimi bir ananın oğlu dayansın*
*düşmənlə üzbəüz təmas xəttində!*
*Qumbara əlində, avtomat çiynində!!!*
*Heç də sevinməsin düşmən!*
*Nə qədər ki, millətim var,*
*Yetirəcək ər igidlər...*
*Düşmənlərlə göz-gözə dayanacaq,*
*Murdar nəfsini yaracaq!*
*Kainat durduqca yurdum yaşayacaq,*
*Qərinələr adlayacaq,*
*Torpaqlarım qayıdacaq!*
*Düşmənin doymayan gözü*
*dağlanacaq!!!*
*Yurdumuza gələn yolu bağlanacaq!*
*Gözdən axan o yaşlarsa xəbər verir*
*anaların dözümündən,*
*Ölüm özü də utandı şəhidlərin*
*ölümsüzlüyündən!!!*

4_Layout 1 30.07.2014 9:10 Page 1



## BİZİM ŞÜAR:

**“MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!”**

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## BUNU BİLMƏK VACİBDİR

### Kondisionerdən düzgün istifadə etmədikdə yaranan fəsadlar

Araşdırmalar sübut edib ki, kondisionerlər yuxarı tənəffüs yollarında, ağciyərlərdə bir sıra ağır fəsadlara, hətta sətəlcəmə səbəb ola bilər. Ona görə də kondisionerdən düzgün şəkildə istifadə olunmalıdır.

İstifadəçilərin ilk növbədə riayət etməli olduğu qayda kondisionerin dərəcəsini bayırdakı hava temperaturuna uyğunlaşdırmaqdan ibarətdir. Bundan başqa, kondisioneri müəyyən fasilələrlə və tədricən dərəcəsini artırmaqla işlətmək lazımdır. Məsələn, 40 dərəcə isti havadan 20 dərəcə soyuqluğu olan otağa daxil olmaq insan səhhətində ciddi fəsad yarada bilər. Kondisionerin verdiyi hava bayırdakı hava ilə uzlaşmalıdır. Bu zaman bədən otaqdakı temperatura daha yaxşı adaptasiya ola bilir. Kondisioner işləyən otaqla çöldəki havanın arasında temperaturun 3-5 dərəcə fərqi olmalıdır. Uzun müddət 18 dərəcəyə qədər soyudulmuş otaqda olmaq nəfəs çatışmazlığı, qrip, burun qanaması hallarının baş verməsinə səbəb ola bilər. Bu otaqdan isti havaya çıxmaq isə daha təhlükəlidir.

Mütəxəssislər kondisioner işləyən otağın havasını tez-tez dəyişdirməyi məsləhət görürlər. Əks təqdirdə otaqda bakteriyaların və tozların toplanır ki, nəticədə nəfəs çatışmazlığı, asma, allergik qrip və s. xəstəliklər törəyir.

Kondisionerlər allergik fəsadlara da səbəb olur. Bu fəsadlar uşaqlarda da müşahidə olunsa da, ən çox 50 yaşdan yuxarı olan insanlara və siqaret çəkməyənlərə təsir edir. “Ventilyasiya pnevmoniyası” adlandırılan bu xəstəliyə kondisionerlərdəki kif qatları və bəzi bakteriyalar səbəb olur. Xəstəlik özünü 4-6 saat sonra qızdırma, baş ağrıları, halsızlıq, göbələk infeksiyası ilə göstərir. Daha sonra öskürək, bəlğəm, nəfəs darlığı, sinədə sıxışma hissi kimi ağciyərlərə aid əlamətlər ortaya çıxır. Qızdırma yüksəkliyi ilə bərabər ürək döyüntüsü də artır.

Maşında istifadə edilən kondisioner bronxit, sətəlcəm, sinuzit, tənəffüs yolu, bəzi əzələ xəstəliklərinə, göz, beyin və badamcıq iltihabına səbəb olur. Üz kondisioner havasıyla çox təmas etsə, üz iflici yaşana bilər. Buna görə soyuq hava üz və döş qəfəsi ilə çox təmasda olmamalıdır.

Bir sözlə, kondisionerdən düzgün istifadə bu xəstəliklərin qarşısını almağa kömək edəcək. Kondisioner xəstəliyinə yaxalandığınızdan şübhələnsəniz, mütləq həkimə müraciət edin.

## PEYVƏND İŞİNİN TƏŞKİLİ

***Şəxsi heyətin sağlamlığının qorunması və hərbi hissələrdə epidemioloji salamatlığın təmin edilməsində yoluxucu xəstəliklərin immunoprofilaktikası mühüm əhəmiyyət kəsb edir. Yoluxucu xəstəliklərin immunoprofilaktikası-profilaktik peyvəndlər vasitəsilə yoluxucu xəstəliklərin qarşısının alınması, yayılmasının məhdudlaşdırılması və ya ləğv edilməsidir. Profilaktik peyvəndlər – yoluxucu xəstəliklərə qarşı spesifik immunitetin yaradılması üçün insan orqanizminə tibbi immunobioloji preparatların (vaksinlər, immunoqlobulinlər) yeridilməsidir.***

Qoşunlarda peyvəndlər planlı və epidemik göstərişlərə görə müəyyən edilir. Planlı peyvəndlər (difteriya və tetanus əleyhinə) təqvim üzrə gənc əsgərlərin qəbulu zamanı aparılır, epidemik göstərişlərə görə isə - epidemioloji vəziyyət nəzərə alınmaqla həyata keçirilir.

Peyvənd ediləcək şəxsi heyət həkim tərəfindən yoxlanılır. Bu zaman əvvəllər vurulmuş peyvəndlərə, dərman preparatları, ərzaq məhsullarına qarşı allergiya reaksiyalarının tipləri, keçirilmiş xəstəliklərə dair anamnestik məlumatlar diqqətlə öyrənilməlidir. Həmçinin, şəxsi heyət arasında peyvəndlərin qoruyucu əhəmiyyəti barədə izahat işləri aparılmalıdır.

Peyvəndin aparılmasına tibbi əks-göstərişlər daimi və müvəqqəti olur. Kəskin respirator infeksiyalar, hər hansı kəskin yoluxucu xəstəlik dövründə müvəqqəti tibbi əks-göstərişlər olur. Daimi tibbi əks-göstərişlərə - stenokardiya və infarktdan sonrakı vəziyyət, hipertoniya xəstəliyi, qaraciyərin üzvi zədələnmələri, bronxial astma, qan sistemi xəstəlikləri, əvvəlki peyvəndləmədə müşahidə olunan allergik reaksiya, vaksinin tərkibində olan antibiotiklərə həssaslıq və digər xəstəliklər aiddir. Təcrübə göstərir ki, peyvəndin aparılması zamanı əsgərlər arasında əsasən müvəqqəti tibbi əks-göstərişlər olur.

Bütün profilaktik peyvəndlər yalnız tibb məntəqələrində və müalicə - profilaktika müəssisələrində təşkil olunur. Hərbi hissədə peyvəndləmə tibb xidməti rəisinin tərtib etdiyi layihə əsasında komandirin əmri ilə təyin olunmuş qrafik üzrə həkimlər və ya onların müşahidəsi altında təcrübəli feldşer və tibb bacıları tərəfindən həyata keçirilir.

Vaksinasiya zamanı (xüsusilə ilkin peyvənd aparılan zaman) tibb işçisi anafilaktik şokun baş verməsi təhlükəsini daim nəzarətində saxlamalı, şokun erkən əlamətlərini və şok baş verdikdə təxirəsalınmaz tibbi yardımın göstərilməsini bilməlidir. Peyvənd aparılan hər bir tibb məntəqəsində anafilaktik şok əleyhinə lazımi dərman preparatları olmalıdır.

Peyvənd aparılan otaq, alətlər üçün masa, döşəmə sabunlu su ilə yuyulmalı və dezinfeksiyaedici məhlullarla silinməlidir. Tibbi alətlər qoyulan masanın üstünə steril mələfə sərilməlidir.

Hərbi qulluqçuların effektiv immunlaşdırılmasının vacib şərtlərindən biri peyvənd materiallarının düzgün saxlanılmasıdır. Vaksin və onun həlledicisi +20C - +80C temperaturda saxlanılmalıdır.

Peyvəndləmənin əvvəlində hər bir vaksin seriyası 40-50 hərbi qulluqçuda yoxlanılır və alınan nəticələr qiymətləndirilir. İmmunlaşdırılmadan sonra onların 7%-də orta və güclü reaksiyalar müəyyən edildikdə vaksinin həmin seriyasının istifadəsi dayandırılır. Peyvəndlənmiş hər bir şəxs 60 dəqiqə ərzində tibbi müşahidədə olmalıdır. Bu müddətdə həmin şəxsdə anafilaktik şok əlamətləri təzahür etdikdə şok əleyhinə tədbirlər aparılır.

Əsgərlərin tibb kitabçalarına vaksinin vurulma tarixi, preparatın adı, dozası, seriyası, yeridilmə üsulu, eləcə də postvaksinal reaksiya qeyd olunur.

**DQBİ-nin Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsinin rəisi - baş sanitar həkim t/x polkovnik - leytenantı A.Musayev**

## 1 AVQUST AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜDÜR




***1 avqust ölkəmizdə ən əziz günlərdən biri kimi qeyd olunur. Çünki milli varlığımızın əsas atributlarından olan Ana dilimizlə bağlıdır. Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur.***

Bu gün Azərbaycan dilinin dövlət statuslu dillər arasında olmasına görə bu dilin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş Ümummilli Lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ulu Öndər milli-mənəvi dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində çox mühüm addımlar atıb. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi.

**1993-cü ildə Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dili öz inkişafında yeni mərhələyə qədəm qoydu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil dövlətimizin ilk Konstitusiyası ilə dövlət dilinin adı bərpa edildi. Bu, Ulu Öndərin Ana dilimizə dəyişməz mövqeyinin daha bir parlaq nümunəsi oldu.**

Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. “Dövlət dili işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi ölkəmizdə bütünlüklə təmin edilməsi Ulu Öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq etdi. Ümummilli Liderin 9 avqust 2001-ci il tarixli fərmanı ilə avqustun 1-i ölkəmizdə “Azərbaycan dili və Azərbaycan əlifbası günü” kimi qeyd olunur. 2002-ci il 30 sentyabr tarixdə “Azərbaycan Respublikasında Dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addımdır. Bu sənəd Ümummilli Lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” və “Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında” Sərəncamları və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

## KƏŞFİYYAT PEYKİMİZ ORBİTƏ ÇIXARILDI

### Kosmik müdafiə güclənir



Fransanın “Airbus Defence and Space” şirkəti Azərbaycanın “Azerkosmos” ASC üçün aşağı orbitli peyk buraxıb. Bu barədə Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib.

Məlumata görə, “SPOT-7” yerin məsafədən zondlanması peyki orbitə iyunun 30-da çıxarılıb. Nazirin sözlərinə görə, hazırda peykin idarə edilməsinin "Azərkosmos"a verilməsi ilə bağlı danışıqlar aparılır.

“Airbus Defence and Space” şirkətinin yaydığı məlumata görə, bu peyk real vaxt rejimində yüksək dəqiqliklə və keyfiyyətli görüntü əldə etmək imkanı verəcək.

“Airbus Defence and Space” şirkətinin Müdafiə, Kosmik Kommunikasiya, Kəşfiyyat və Təhlükəsizlik rəhbər Evert Dudokun sözlərinə görə, bu optik peyk tərəfindən təqdim olunan xidmətlər TerraSAR-X və Tandem-X radar peyklərinin imkanları ilə genişləndirilir.

Peyk ən azı 10 il xidmət üçün nəzərdə tutulur.

## “FORMULA-1” AZƏRBAYCANDA

### Yarışların ölkəmizdə 2016-cı ildə keçiriləcəyi dəqiqləşib



“Formula-1” yarışlarının “Qran-pri” mərhələlərindən birinin Azərbaycanda 2016-cı ildə keçiriləcəyi dəqiqləşib.

Məşhur “Forbes” jurnalının məlumatına görə, bu barədə “Formula-1” yarışlarının rəhbəri Bernard Ekklstoun bildirib.

B.Ekklistoun deyib ki, “Qran-pri” mərhələlərindən biri Azərbaycanda 2015-ci ildə keçirilsəydi, yarışların sayı həmin mövsümündə 20-dən çox olacaqdı: “Bu isə təqvimin həddindən artıq uzanmasına gətirib çıxaracaqdı. Təqvimin uzanması aparıcı komandaların narazılığına səbəb ola bilərdi. Odur ki, biz “Qran-pri” mərhələlərindən birinin Azərbaycanda 2016-cı ildə keçirilməsinə qərar verdik”.

Qeyd edək ki, bundan əvvəl yarışmanın 2015-ci ildə keçirilməsi planlaşdırılırdı.

## Allah rəhmət eləsin

Ali Hərbi Məktəbin şəxsi heyəti polkovnik-leytenant Yavər Orucova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25031 saylı hərbi hissənin şəxsi heyəti kapitan Mehparə Qurbanovaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Nərgiz Rüstəmovaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin şəxsi heyəti leytenant Sürac Məmmədova **əmisinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25031 saylı hərbi hissənin şəxsi heyəti sabiq hərbi qulluqçu **Məlahət Nəbiyevanın** vaxtsız vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Ali Hərbi Məktəbin şəxsi heyəti gizir Sevinc Qurbanovaya **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000